# O "ağlama" dedi... mən isə oyandım

**Dünya təkcə dağıyla, daşıyla, çayıyla, ormanıyla, bir sözlə, təbiət və coğrafiyası ilə deyil, həm də insanları ilə gözəldi, maraqlıdı. Bu mənada dünyadan maraqlı, səmimi, həssas, anlayışlı, gözəl və duyğusal bir insan köçəndə mənə elə gəlir ki, Yer üzünün bir nöqtəsi, bir insan duracaq qədər ərazisi, öz gözəlliyini itirir, boşalır və can sıxıcı olur. Doğrudu, o köçüb gedən xatirələrini, izini, sözünü qoyub gedir. Amma məsələ burasındadı ki, xatirələr nə o gedəndi, nə də onun bütünlüyü. Elə o iz də, söz də o cürdü. Biri var adamın öz dilindən sözünü eşidəsən, biri də var onun sözünü kimlərsə sənə çatdırsın, hardansa oxuyasan, ya da səs yazısı kimi dinləyəsən. Bunlar yer və göy qədər fərqlənir bir-birindən...**

Dəyərli xanım yazarlarımız arasında mənə içdən gələn bir sevgiylə, "qardaş" deyən, mənim də elə o istəklə "bacı" dediyim bir Allah Bəndəsi var idi. Mən "Bəndə" sözünü ona görə böyük yazdım ki, o həm də böyük ürək sahibi idi. Bu gün də inanmıram ki, o kiminsə qəlbinə toxunmuş olsun. Çünki o qədər həssas idi ki çevrəsindəki hər kəsin haqqımı gözləməklə qayğısını da çəkirdi. Elə bir Allah onu qayğı yükü çəkmək üçün yaratmışdı və bir də elə bir Allah onu yaşadıqlarını, duyduqlarını kağıza köçürmək, misralamaq üçün gətirmişdi dünyaya...

Bəli, indi də səsi qulaqlarımda, çöhrəsi gözümün önündə olan bir Fərqanı var idi. Hamımızın Fərqanəsi. Ədəbiyyatımızın Fərqanəsi. Əlimdə tutmuşam onun mənə avtoqrafla bağışladığı "İkimiz darıxsaq..." kitabını. Təsadüfdən götürdüm kitab rəfimdən. Götürən kimi də açıb oxuduğum ilk şeir "Ağlama" oldu. Sağlığında hər kəsi qayğılardan qorumağa çalışan Fərqanə indi açdığım kitabında birbaşa üzümə dedi ki, ağlama.

Və mən də özümü ovcumda sıxaraq onun səsinə, sözünə təslim oldum. Gözlərim dolsa da, kənardakılara nə çəkdiyimi, nə yaşadığımı büruzə vermədim. Çünki o dedi:

*Onsuz da qəlbim sıxılır,*
*Gözünü sıxıb, ağlama.*
*Ağlayan Tanrıya baxar,*
*Sən mənə baxıb ağlama.*

Hə, doğru deyirsən. Biz hər tərəfə baxırıq, amma bir Allaha baxmağı, bir də ruhumuzun əksini, varlığımızın güvənci olan adamlara baxmağı unuduruq. O məqama qədər ki, dizimizə dəyən daş bizi düşünməyə məcbur edir. O ağrının sızıltısı yatmış bəndəsi oyadır. Və oyanan bəndə də öz-özünə pıçıldayır:

*Susuram ölü dəniztək*
*Solub, ağarmış bəniztək...*
*Sağ əlini üzünə çək -*
*Bəlkə... duanda oyanım...*

Hər kəsin bu dünyada ümid yeri, güvənc yeri olduğu kimi, hər kəsin içində özəl duası da var. Bu elə duadı ki, onu bir Allah eşidir, bir də sən. Çünki bu dua məhz sənin üçündür və Allaha edilib. Deməli, ölü dəniz də olsa, saralıb solmuş çöhrənlə hər kəsin yadından çıxsan da, sağ əlini üzünə çəkəndə onda diksinib oyanacaqsan. Oyananda da bir dəli ağlamaq tutacaq səni. Unudulmağının, atılmağının, tənhalığının, ağrılarının sənə zaman-zaman üst-üstə yığıb saxladığı və sürpriz etdiyi göz yaşı yanaqlarından axacaq, hıçqırtı başına çəkdiyin yorğanın altında sinəndən qopub ayrılacaq...



Bax, bütün bunlar sənə bir yüngüllük gətirəcək.

Elə biləcəksən ki, çiyinlərindən yük götürüldü. Deməli, bu, elə-belə deyil. Bunun özəl, həm də birmənalı səbəbi var. O səbəbi də Fərqanə deyir:

*Gözümü yola dikmişəm,*
*Düşüb nə hala dikmişəm.*
*Dərdindən qala tikmişəm,*
*Evimi yıxıb, ağlama.*

Bəli, gördünüzmü, necə dəqiq ifadə edib. Necə sarı simə toxunub, necə könlünüzü ovudub.

Həm də bunları elə məharətlə edib ki, "Evimi yıxma" deməyə də yer qalıb. Sən də, mən də evimiz yıxılmasın deyə, çarpışdığımız kimi bizdən "Evimi yıxma" deyənə də saygı və sevgiylə yanaşıb onun istəyini reallaşdırmağa çalışırıq. İstəyirik ki, onun telinə də heç nə, hətta meh də toxunmasın.

Axı bu onun qəlbinə toxunmaq kimi anlaşılan bir toxunuş ola bilər. Onda bizim iç dünyamızı göynədən o qədər anlar, nüanslar, cizgilər, səbəblər ortaya çıxar ki, biz də susmağa məhkum olarıq. Və bəlkə də bir daha oyanmarıq. Çünki:

*Bu sükut gözəl, həm də tər*
*Xatirələr səpilmiş zər...*
*Saçlarını üstümə sər -*
*Sən sübh duranda oyanım!*

Elə ki, adam kipriklərinin ucundakı ulduzları barmağının toxunuşu ilə qoparıb bir kənara atır və yaxud da ovcunun içi ilə gözlərinin yuxusunu perikdirir, onda təkcə yuxu qaçmır, həm də adam yuxudan oyanır. Bu adi bir gerçəklikdi.

Yəni hər kəsin yaşadığı məqamlardan biridi. Amma üstünə sərilmiş saçların çaldığı layladan, yaşatdığı həcmlikdən, ən vacibliyi isə o saçların doyulmayan qoxusundan oyanmaq bəlkə də ən böyük dəlilikdi.

Çünki normal düşüncəsi, böyük sevgisi olan insan büründüyü saçların ona yaşatdığı andan, zamandan heç zaman doya bilməz və oyanmaz. Yalnız o saçlar üzündən götürüləndə onun üçün darıxan ürək səni silkələyib oyadır və bu da özün də bilmədən səni kövrəldər, haldan-hala, xəyaldan-xəyala yuvarlayar. Və bir də görərsən ki, Fərqanə deyir:

*Demə məndən üz çevirib,*
*Gəzişirəm qərib-qərib.*
*Qismətin qapıdan girib,*
*Bacadan çıxıb, ağlama.*

Bəli, bax budu mənim də içimdə kök salmış, mənim də ruhuma hakim olmuş duyğuların diktəsi. Təbii ki, oxucu olaraq siz bu yazdıqlarımı istədiyin səmtə, istədiyiniz məcraya yoza və yönəldə bilərsiz.

Amma əmin olun ki, bunlar bir şair sözü deyil, bir şair yaşamı deyil, bu bir aşiqin, günümüzün ən böyük Məcnununun Allaha və sevdiyinə üz tutaraq öz-özünə dediklərinin yalnız bir misrası, bir cümləsidi.

O deyir ki:

*Qoyma məni qəm təkləsin,*
*Demiyə şumtək ləkləsin...*
*Seçib ruhumun nəğməsin -*
*Oxu, Quranda oyanım!..*

İndi ruhuna oxunan Quran, adına tapınan surə və ən vacibi səni sən edən sevgi ayaqda durmağının, oyaq qalmağının ən böyük səbəbidir. Bu səbəbin mahiyyətinə varmaq onun bütünlüklə özünün sevgi kredona köçirtmək səni xəlvət ağlatsa da, yatmağa imkan verməyəcək.

Sən həmişə oyaq olacaqsan. Çünki gözlərin onun yoluna baxacaq, ürəyin onun nəfəsini saçına toxunan əl kimi öz üz-gözündə hiss edəcəkdir. Hətta elə biləcəksən ki, o sənin yanağındakı bir damla göz yaşını da dodaqları ilə, nəfəsi ilə qurutdu və pıçıldadı ki:

**- Yanındayam, ağlama!**

**Bu yazı ədəbiyyatımızın, şeirimizin Fərqanəsinin məndə oyatdığı hislərin kağız variantıdı. Onu mən Fərqanənin şeirinin əlindən tutaraq kağıza köçürə bildim...**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.- 2022.- 16 iyul.- S.5.